**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**MEMARLIQ VƏ İNCƏSƏNƏT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**AYTƏN ƏLİ qızı ƏHMƏDOVA**

# AZƏRBAYCAN MEDALYER SƏNƏTİ

**İxtisas: 6215.01 – Təsviri sənət**

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun “Təsviri, dekorativ-tətbiqi sənətlər və heraldika” şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Sevil Yusif qızı Sadıxova**
sənətşünaslıq üzrə elmlər doktoru

**Rəsmi opponentlər:** **Rəna Azər qızı Məmmədova**
AMEA-nın müxbir üzvü, professor

**Elnarə Nəsrəddin qızı Musayeva**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

Dissertasiyanın müdafiəsi 28 noyabr 2018-cı il saat 12:00-da AMEA Memarlıq və İncəsənət İnstitutunun nəzdində yaradılmış Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az 1143, Bakı ş., Hüseyn Cavid prospekti, 115, AMEA Memarlıq və İncəsənət İnstitutunun iclas zalı.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat “____” __________ 2018-ci il tarixində göndərilmişdir.

**FD.01.191 Dissertasiya Şurasının**
**elmi katibi, sənətşünaslıq üzrə**
**fəlsəfə doktoru, dosent:** **X.A.Zeynalov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

Ölkəmizin müstəqilliyi bərpa edildikdən sonra mədəni irsimizin öyrənilməsinə, qorunması və inkişafına xüsusi diqqət göstərilir.

Ümumtürk mədəniyyətinin təşəkkülündə böyük tarixi rol oynamaqla yanaşı, Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi yüksək mədəniyyəti, o cümlədən də təsviri incəsənəti ilə dünya xalqları arasında əhəmiyyətli yer tutur. Bu baxımdan qeyd etmək lazımdır ki, təsviri incəsənət tarixi öyrənilmədən Azərbaycan tarixinin vahid, tarixi həqiqətləri əks etdirən, obyektiv və hərtərəfli konsepsiyasını yaratmaq mümkün deyil.

**Mövzunun aktuallığı.** Azərbaycan incəsənətinin qədim köklərə malik olduğunu sübut edən tarixi-mədəni abidələrimizdən biri də sikkə və medallardır. Kiçik formaya, lakin məzmunca böyük tutumlu, lakonik, dərin emosional təsir gücünə malik medalyer sənəti bir xalqın tunc salnaməsidir. Sikkələr, medallar milli ruhun və ideyanın daşıyıcılarıdır. Onlar bizim ruhi, mənəvi və dövlətçilik tariximizdir. Ona görə medalyer sənətinin öyrənilməsi həm tarixi, həm siyasi-ideoloji, həm də elmi və bədii-estetik baxımdan aktuallıq kəsb edir. İlk növbədə, bu sənətin xronoloji öyrənilməsi mədəniyyət tariximizin obyektiv mənzərəsinin yaradılmasına xidmət edir. Bu tədqiqat ümumilikdə Azərbaycan heykəltəraşlıq sənətinin hansı özüllər üzərində təşəkkül tapdığını, hansı təsirlərdən faydalandığını müəyyənləşdirilməsində böyük rolu vardır. İndiyə kimi Azərbaycan heykəltəraşlıq sənətini araşdıran alimlərin tədqiqat obyekti olaraq medalyer sənətinə lazımı diqqətin ayrılmamağı və bu sənətlə bağlı ciddi təhlillərin, elmi-tədqiqat əsərlərin yoxluğu işlənilən mövzunun aktual olduğunu bir daha sübut edir. Neçə illər ərzində yığılmış böyük faktiki materialların medalyer sənətinin Azərbaycanın digər sənətləri arasında yerinin təyini məqsədi ilə ümumiləşdirməyə və onun ayrı-ayrı dövrləri kimi, həm də görkəmli sənətkarların yaradıcılıqları sənətşünaslıq nöqteyi-nəzərindən qiymətləndirilməsinə ehtiyac duyulur.

Dissertasiyada qaldırılan məsələlər xalqımızın etnogenezi, dövlətçilik ənənələrinin öyrənilməsi baxımından da aktuallıq kəsb edir, Azərbaycan xalqının mədəni irsinin qorunub saxlanması və öyrənilməsi üçün böyük əhəmiyyətə malikdir. Monumental heykəltəraşlıq əsərləri bu və ya digər səbəblərdən məhv edilərsə (məs: Bakıda V.Lenin, K.Marks, S.Kirov, M.Əzizbəyovun monumental heykəlləri və s.), medal, plaket və sikkələr bir neçə nüsxədə, əsasən bərk materiallarda hazırlandığı üçün uzun illər mövcud ola bilir. Yazılı mənbələrdən bizə tanış olan bir çox abidələr qasırğa, zəlzələ, müharibələr zamanı dağıdılmış, amma çoxlu

sayda kiçik sikkələrsə öz səthlərində həmin abidələri, tanınmış insanların portretini indiki dövrə qədər çatdırmışlar.

Medalyer sənəti obyektiv aləmin düzgün dərk olunmasına kömək edir, xəlqilik, millilik və beynəlmiləlçilik keyfiyyətləri ilə insanı tərbiyə edir. Sikkə və medalların kod-abstraksiya informativliyində əcdadlarımızı düşündürən bədii təsəvvürlərin əks-sədası yaşamaqdadır. Onlar hər hansı dövrün əsl obyektiv sənədi olub özündə çox spesifik informasiya daşıyıcısı olaraq ölkənin siyasi tarixi, ideologiyası və iqtisadiyyatının işıqlandırılması zamanı yazılı mənbələrdəki məlumatları dəqiqləşdirmə işində əvəzsiz əhəmiyyətə malikdir. Buna misal olaraq, 1828-ci ildə Rusiyanın İran ilə sülh imzalanmasına həsr olunan Sankt-Peterburqda zərb edilmiş xatirə medalının üzərində məscid və minarəli, sırf müsəlman-türk şəhəri İrəvanın təsvirini göstərmək olar. Bu kiçik, əl boyda olan abidədə xalqımızın neçə-neçə düşmənlərini susduracaq qədər təkzibolunmaz, əyani faktlar əks olunub. Bununla da medalyer sənət nümunələrinin tarixi və bədii abidə kimi əhəmiyyəti sübut olunur.

Eyni zamanda Azərbaycan medalyer sənətinin ilk nümunələri qədim insanların bədii təfəkkürünü, estetik baxışlarını və dini-ideoloji təsəvvürlərini əks etdirən qiymətli sənət əsərləridir. Onlar Azərbaycanın qədim əhalisinin mənəvi mədəniyyəti və incəsənəti haqqında bir sıra maraqlı elmi nəticələr söyləməyə imkan verir.Digər tərəfdən, Azərbaycan medalyer sənətinə yeni baxışın formalaşması belə bir tədqiqatı aktual edir. Milli mədəniyyət tarixinə türkçülük-azərbaycançılıq baxımından yanaşılması hal-hazırda dövrün tələbinə çevrilmişdir.

Tədqiqat işinin aktuallığı həm də ondadır ki, elmi dövriyyəyə nadir hallarda daxil edilən yeni materiallarla tanış edir. Bu tədqiqat Milli Azərbaycan Tarixi Muzeyinin zəngin ekspozisiyası və fondunda, şəxsi kolleksiyalarda saxlanılan sikkə və medalların populyarlaşması üçün də əhəmiyyətlidir.

Beləliklə, əsaslı tədqiqata ehtiyacı olan, lakin uzun müddət elmi araşdırma orbitindən kənarda qalan medalyer sənətinin hərtərəfli və dərindən öyrənilməsi sənətşünaslığımız üçün olduqca önəmli olub mühüm elmi əhəmiyyət kəsb edir.

**Problemin öyrənilmə dərəcəsi**. İnkişafı boyu zəngin ənənələr əldə etmiş, heykəltəraşlığın ən az öyrənilmiş sahəsi olan medalyer sənəti haqqında ölkəmizdə hər hansı tədqiqat işi və ya bu sahəni əhatə edə bilən ədəbiyyat çox az miqdardadır. Sənətşünaslıq elmləri doktoru, professor Cəmilə Novruzovanın Azərbaycan heykəltəraşlığına həsr olunmuş

əsərlərindəki kiçik qeydləri[1], tədqiqatçı Mövsüm Əliyevin "Qobustan" jurnalındakı silsilə məqalələri[2] və Vüsal Bağırovun "Azərbaycanda kiçik formalı heykəltəraşlığın inkişafı. (XX əsr)"[3] adlı kitabında ancaq XX əsr medalları haqqında gedən məlumatlar istisna olmaqla Azərbaycan medalyer sənətini işıqlandıra biləcək hər hansı bir nəşr nümunəsi tapmaq mümkün deyil. Xarici ölkələrdə nəşr olunmuş əsərlərdə bu mövzu ilə əlaqədar olan tədqiqatlar da yer almışdır və böyük maraq doğurur. A.V.Kosarevanın "Искусство медали"[4], N.V.Odnaralovun "Техника медальерного искусства" [5] əsərlərində Azərbaycan medalyer sənətkarları haqqında kiçik məlumatların olması da qeyd olunmalıdır. Göründüyü kimi, Azərbaycan heykəltəraşlıq sənətində öyrənilməmiş bir sıra problemləri, o cümlədən Azərbaycan medalyer sənətinin bədii xüsusiyyətləri, təsvirlərin semantikası, onların müxtəlif medal kompozisiyalarında tətbiqi məsələlərinin mövcudluğu müasir tələblərə cavab verən sistemli tədqiqat işinin yazılmasını günün zərurətinə çevirir. Azərbaycan medalyer sənətinin tədqiqi həm Azərbaycan, həm də xarici tədqiqatçıları maraqlandırsa da, problemə daha çox tarixi-arxeoloji aspektlərdən yanaşma üstünlük təşkil etmişdir. Medalyer sənəti sənətşünaslıq və numizmatikanın birgə tədqiq obyektlərindəndir. Bir sıra belə kateqoriyalar vardır ki, onlar müxtəlif elm sahələrinin kəsişmə nöqtələridir. Belə əsərlərin tədqiqində hər elm sahəsinin nümayəndəsi öz prizmasından yanaşır, obyekti öz ölçülərinə müvafiq nəzərdən keçirir.

Azərbaycanda numizmatika tarixinin yaranma dövrü XX əsrin əvvəlləri hesab olunur. Ölkəmizdə numizmatika elminin əsasını Y.A.Paxomov qoymuşdur. 1950-80-ci illərdə Azərbaycanın orta əsr abidələrinin arxeoloji qazıntılarından xeyli sikkə tapıntıları və dəfinələr əldə edilmişdi. Onlar Y.Paxomov, A.Rəhimov, Ə.Rəcəbli, M.Seyfəddini, L.Əzimova,

---

[1] Искусство Советского Азербайджана. М.: Советский художник, 1970, 206 с.

[2] ƏliyevM. Azərbaycanda medal sənəti // "Qobustan" incəsənət toplusu,1986, №1 (81), s. 80-86; Kamillik yollarında // "Qobustan" incəsənət toplusu, 1982, №3(55) s. 38-39; Respublikamızda medalyer sənəti barədə // "Qobustan" incəsənət toplusu, №2. 1983, s.77.

[3] Bağırov V. Azərbaycanda kiçik formalı heykəltəraşlığın inkişafı: XX əsr. Bakı: Nurlan, 2004,164 s.

[4] Косарева А.В. Искусство медали. II изд., доп. и перераб. – М.: Просвещение. 1982, 127 с., илл.

[5] Одноралов Н.В. Техника медальерного искусства: Учеб. пособие. М.: Изобразительное искусство. 1983, 160 с.

Q.Pirquluyeva və başqaları tərəfindən öyrənilmiş, sikkə zərbi və pul dövriyyəsi üzrə aparılan tədqiqatlar intensivləşmiş, bu istiqamətdə çoxsaylı məqalələr, bir neçə monoqrafiya nəşr olunmuşdu.

Həmin əsərlərdə sikkələrin təhlili numizmatlar tərəfindən sikkə zərbi, pul sistemləri, əmtəə-pul münasibətləri, metroloji ölçüləri, mübadilə vahidi olaraq bazar münasibətlərində yeri kimi istiqamətlərdə aparılmış, bədii cəhətlərinə isə yetərincə toxunulmamış, yəni bu sahəyə numizmat baxışı hakim olmuşdur.

Sənətşünaslıq təhlili isə ənənəvi təsvirçilik mövqelərindən deyil, yəni təkcə görünəni, üzdə olanı qələmə almaqla kifayətlənmir, sənət əsərlərinin sosial mahiyyətini, təfəkkür, cəmiyyət və fəlsəfi dünyagörüşü aspektində izah edir, sənətin forma və məzmununu onlarla əlaqədə öyrənir.

Beləliklə, mənbələrin təhlili bir daha bu mövzunun dərindən öyrənilməsini zəruri edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədini Azərbaycanda tarix boyu formalaşan medalyer sənətinin inkişafı yollarının izlənilməsi, bu sənətə aid sənət nümunələrinin tədqiqi və bədii təhlili təşkil edir.

Bu məqsəddən irəli gələn vəzifələr aşağdakılardan ibarətdir:

- Azərbaycan medalyer sənətinin tarixi-bədii köklərini, genezisini, xronologiyasını müəyyənləşdirmək;
- Azərbaycan medalyer sənətini mənşəyinə və istifadəsinə görə sistemləşdirmək;
- Azərbaycan medalyer sənətində istifadə olunan təsvirlərin semantik təhlilini aparmaq;
- əsərlərin bədii-estetik məziyyətlərindən dolayı onların sosial-fəlsəfi aspektinə diqqət yönəltmək;
- son illərdə mədəni kod və mənaların axtarışına, onların şifrinin açılmasına maraq artmışdır. Bununla əlaqədar son dövrlərdə əldə olunmuş material və məlumatlara yeni mövqelərdən baxmaq;
- ayrı-ayrı medalyer sənət nümunələrinin təhlili, məlumatların dəqiqləşdirilməsi və atribusiyası, bu sahədə çalışan heykəltəraşların yaradıcılığını tədqiq etmək;
- bəzi medalların yaranma tarixinin dəqiqləşdirilməsi və səhv təyin olunmuş süjetlərin yenidən işlənməsi;
- medalyer sənətinin bədii ifadə vasitələrinin və əsas priyomlarının, kompozisiya-plastik konsepsiyalarının təhlilini aparmaq;
- elmi dövriyyəyə az tanınan nümunələri daxil etmək;

- kompleks tədqiqat metodu ilə medalın çoxtərəfli, unikal tarixi-bədii abidə kimi üzə çıxarmaq və Azərbaycanda onun inkişafını tarixi ardıcıllıqla göstərməyə nail olmaq;

- medalyer sənətinin müasir vəziyyətinin xarakteristikası, onun sonrakı inkişafının perspektivlərinin təyin etmək;

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat obyekti Azərbaycan ərazisində arxeoloji qazıntılar zamanı tapılmış və ayrı-ayrı sənətkarların yaratdığı medalyer sənəti nümunələridir. Həmçinin tədqiqat obyekti kimi Milli Azərbaycan Tarixi muzeyində, Metropoliten muzeyi, Azərbaycan Milli İncəsənət muzeyində, Təbrizdə Azərbaycan muzeyi, Ermitaj və şəxsi kolleksiyalarda saxlanılan medalyer sənəti nümunələrinə istinad edilmişdir. Təltif medalları ilə digər elm sahəsi, yəni faleristika məşğul olduğu üçün, onlar obyekt kimi müzakirəyə daxil edilməmişdir.

Tədqiqat predmetini medalyer sənətinin bədii-kompozisiya xarakteristikası, onun təkamülünün əsas mərhələləri,təsvirlərin semantikası,bədii ənənələrin mühüm cəhət və üslub xüsusiyyətləri təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Dissertasiyanın metodoloji əsasını sənətşünaslıqda qəbul olunmuş tarixi-müqayisəli metoddan istifadə təşkil edir. Araşdırma zamanı bir sıra ictimai elmlər üçün səciyyəvi hesab olunan tədqiqat metodlarından da istifadə edilmişdi.

Tarixi-tipoloji, tarixi-genetik və retrospektiv metodlar Azərbaycan təsviri sənəti araşdırılarkən tətbiq olunmuş, sənətşünaslıq elminə xas başlıca metodlardır. Əsərin yazılması prosesində xronoloji, konkret təhlil (analiz), məntiqi təhlil, problem-xronoloji, dövrləşdirmə, struktur-semiotik təhlil metodlarının müsbət cəhətlərindən də istifadə olunmuşdu. Semiotik metod incəsənət əsərlərinin tədqiqatını işarə sistemi kimi nəzərdə tutur, simvolik "dili" aşkar edərək, tamaşaçıya təsviri sənət əsərlərinin kodlaşdırılmış məzmununu çatdırır.

Tədqiqat işində arxiv məlumatlarından, yerli və xarici alimlərin, arxeoloqların, mütəxəssislərin dünya və Azərbaycan medalyer incəsənəti haqqında elmi-tədqiqat əsərlərindən, kataloqlardan, qəzet və jurnal məqalələrindən, dünya və ölkəmizdəki bir çox muzeylərin eksponatlarından istifadə olunmuşdu.

Metodoloji baza kimi C.Novruzova, R.Əfəndiyev, M.Əliyev, V.Bağırov, N.Odnoralov, A.Kosareva və başqa görkəmli tədqiqatçıların əsərlərində bərqərar olunmuş nəzəri müddəa və qənaətlər əsas götürülmüşdü. Tədqiqat zamanı “Советская скульптура” toplusu, “Декоративное искусство СССР”, “Творчество”, “Искусство”, “Qobustan” jurnallarında çap olunmuş medalyer sənəti problemlərinə həsr

olunmuş məqalələrdən də istifadə edilmişdi. Tədqiqat prosesində elmi-nəzəri, əyani təcrübi materialların təhlili və müşahidə metodlarından da geniş istifadə edilmişdi.

**Tədqiqatın xronoloji və coğrafi çərçivəsi.** Tədqiqatda böyük bir tarixi dövr – tunc dövründən başlayaraq XXI əsrin ilk illərinə kimi zaman çərçivəsində yaradılan medalyer sənəti nümunələri xronoloji ardıcıllıqla araşdırılır.

Tədqiqatın coğrafi sərhədlərinə gəldikdə isə qeyd edək ki, qədim dövr və orta əsrlərdə Azərbaycan mədəniyyətinin inkişafı dövlət sərhədlərinin qeyri-sabit olduğu səbəbindən ölkə ərazisi ilə məhdudlaşmır. Azərbaycan bir çox hallarda Yaxın və Orta Şərqin qüdrətli dövlətlərinin mərkəzi olmuş və bu gerçəklik onun aparıcı mədəni mərkəzə çevrilməsində həlledici rol oynadığı üçün tədqiqatın coğrafi sərhədləri genişləndirilmişdir.

**Tədqiqat işinin elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi bir neçə xüsusiyyətlə müəyyənləşir.Azərbaycan sənətşünaslığında ilk dəfə olaraq:

1. tədqiqatın mövzusuna müstəqil təhlil obyekti kimi baxılır;
2. böyük bir tarixi dövr çərçivəsində–qədim dövrdən başlayaraq XXI əsrin ilk illərinə kimi Azərbaycan medalyer sənəti dinamikada, kompleks surətdə, xronoloji ardıcıllıqla araşdırılır;
3. Azərbaycan medalyer sənəti nümunələrinə (sikkə və medallar) sənətşünas təhlili verilir, onların bədii-obraz cəhətləri aydınlaşdırılır, əsərlərin əsl məğzini anlamaq üçün son dərəcə əhəmiyyətli olan təsvirlərin semantikası aşkara çıxarılaraq açılmasına nail olunur;
4. elmi dövriyyəyə həm arxeoloji qazıntılar zamanı tapılmış, həm də medalyerlərin əsərlərindən ibarət böyük faktiki material daxil edilir;
5. xüsusi tarixi-bədii tədqiqat nəticəsində bir neçə anonim medalın atribusiyasına nail olunur;
6. tədqiqatın XX əsrin medalyer sənətinə həsr edilmiş bölməsində plastikanın bu budağında gedən proseslərin analizi və ümumiləşdirilmələri verilir. Eyni dövrdə yaşamış görkəmli medalyerlərin fərqli və oxşar xüsusiyyətlərini, fərdi üslublarının inkişaf istiqamətlərini, onların bədii-estetik zövqünü, dünyagörüşünü şərtləndirən meylləri, bütövlükdə müxtəlif mərhələlər və proseslər obyektiv dəyərləndirilir.

**Tədqiqatın elmi-nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyanın praktik dəyəri onun elmi, pedaqoji və bilavasitə bədii təcrübədə tətbiqindən ibarətdir.

Bu tədqiqat işinə gələcəkdə mütəxəssislər istər heykəltəraşlıq, istərsə də medalyer sənətinin tədqiqi zamanı bir mənbə kimi müraciət edə bilərlər. Dissertasiya işi bu sahədə ilk araşdırma olduğundan gələcək tədqiqatların

zəmini kimi elmi-nəzəri əhəmiyyətə malikdir. Azərbaycan Dövlət Rəssamlıq Akademiyası və İncəsənət kollecinin heykəltəraşlıq bölməsində tədris vəsaiti kimi də istifadə edilə bilər .

**Dissertasiyanın aprobasiyası.** Dissertasiyanın əsas müddəaları müxtəlif səviyyəli elmi konfranslarda dinlənilmiş, eləcə də müəllifin nüfuzlu elmi nəşrlərdə çap olunmuş 7 məqaləsində əksini tapmışdır. Tədqiqat işi Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun "Təsviri, dekorativ-tətbiqi sənətlər və heraldika" şöbəsində müzakirə olunub.

**Tədqiqat işinin quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, altı yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın məzmunu kompüter yığımının 139 səhifəsində öz əksini tapmış, illüstrasiyalar isə albom şəklində dissertasiya işinə əlavə kimi təqdim olunmuşdur.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** dissertasiyanın ümumi səciyyəsi verilir, mövzunun aктuallığı əsaslandırılır, obyeкt və predmeti, tədqiqatın məqsəd və vəzifələri, xronoloji və coğrafi çərçivəsi müəyyənləşdirilir, elmi yeniliyi, işin nəzəri və praкtiк əhəmiyyəti, strukturu açıqlanır.

Dissertasiyanın "**Medalyer sənəti haqqında ümumi məlumat**" adlanan **I fəsli** iki yarımfəsildən ibarətdir."Medalyer sənətinin yaranması və əsas xüsusiyyətləri" adlanan **birinci yarımfəsildə** medalyer sənətinin təşəkkülü, inkişaf mərhələləri, bu sənətə aid istilahlar, medal və sikkələrin fərqli və oxşar cəhətləri, əsas texniki və üslub xüsusiyyətləri, qədim dövrdən başlayaraq müasir zamanadək kiçik plastikanın bu növündə gedən proseslər və s. haqqında məlumatlar verilir.

Medalyer sənəti (fransız dilindəki "medailleur" sözü) – kiçik plastikanın bir sahəsi olub, sikkə və medal hazırlanması sənətidir[1]. Bu sənət nümunələri müxtəlif metaldan (mis, gümüş, qızıl, tunc və s.), hətta çinidən də (alman dillində Porzellanmedaille) hazırlana bilər. "Medal" sözü ingilis dilində "medal", italyan dilində "medaglia", latın dilində "metallum", yəni metaldan düzəldilmiş nişan deməkdir. Medallar düzəldilmə texnikasına görə tökmə, döymə və həkk olunma üsulları ilə fərqlənir. Elə formalaşıb ki, medallara əksər hallarda numizmatika kontekstində baxılır. Bu, hər şeydən

---

[1] Большая Советская Энциклопедия. Т.15, 411 с.

əvvəl, onunla izah olunur ki, sikkələrlə medallar xarici görünüşcə oxşardır və zərb zamanı eyni texnologiyadan istifadə edilir. Ancaq sikkə və medalların arasında prinsipial fərqlər mövcuddur. Sikkələr, əsasən, küllü miqdarda və mərkəzi siyasi hakimiyyətin icazəsi ilə zərb edilir, üzərində göstərilmiş müəyyən pul ekvivalentinə malikdir və pul dövriyyəsində iştirak edən mübadilə vasitəsi kimi nəzərdə tutulmuşdu. Sikkələrdə onların sütun şəkildə asan yığılması üçün bütün səth boyu relyefi eyni hündürlükdə olduğu halda, bədii medallarda isə belə bir xüsusiyyət olmur (onlar müxtəlif relyefli ola bilərlər). Digər fərqlərdən biri də medalın ölçüsüdür. O, adi dövriyyədə olan sikkələrdən xeyli böyükdür. Medal tirajının azlığı və təyinatı onun kompozisiyasının mürəkkəbliyinə və təsvirin daha yüksək bədiiliyinə gətirib çıxarır. Bu xüsusiyyətləri nəzərə alsaq, onların xatirə sikkələri ilə yaxın olduğu qənaətinə gəlirik.

Plastikanın bu növünün bədii ənənələri çox qədim zamanlara təsadüf edir. Medalın sələfləri isə antik sikkələr və medalyonlar hesab olunur. Öz tarixini imperator və Allahların portretləri olan sikkələrdən başlayan medal, adətən obrazları qəhrəmanlaşdıran, tarixi şəxsiyyət və ya hadisəyə həsr olunmuş miniatür abidədir. [1]Qədim Yunan və Roma sikkələri medalyer sənətinin ən gözəl nümunələri sayılır.

Bu sənət e.ə. VIII-VII əsrlər arasında Kişik Asiyada – Lidiya (müasir Türkiyə ərazisi) və qədim Yunanıstanda – Eqina adasında sikkə hazırlaması ilə əlaqədar meydana gəlmişdir.Üçüncü versiyaya əsasən isə ilk sikkə zərbinin Eolitdə Kim şəhərinin çariçası Demodika (Hermodika) tərəfindən həyata keçirilməsi də həmçinin tarixi həqiqət ola bilər.

Qədim dövrlərdə sikkə hazırlanması üçün əsasən zərb etmə üsulundan istifadə edilmişdi. Medalın və sikkənin arasında oxşarlıq və fərq haqqında danışarkən qeyd etmək lazımdır ki, medalların əhəmiyyətli qrupu tökmə üsulu ilə istehsal edilmişdi. Belə medallara Renessans medallarının çox hissəsi, sonrakı dövrlərdə, xüsusilə də bizim dövrdəki medalların əksəriyyəti aiddir.

Medalyer sənətinin incəsənətin başqa növlərindən fərqləndirən öz dili, öz estetikası, öz imkanları vardır. Bu özünəməxsusluğu ən çox təyin edən onun texnoloji tərəfidir. Konstruktiv-plastik cəhətdən yapmanın ifadəli ümumiləşdirilməsi, forma keçidlərinin xəfifliyi, plastik həllin tökmə və ya zərb olunma texnikasından asılılığı kimi xüsusiyyətlər xarakterikdir.

---

[1] Труды Государственного Эрмитажа. Т.56. Эрмитажные чтения памяти В. Ф.Левинсона-Лессинга (02.03.1893 – 27.06.1972). 2006–2007 // Государственный Эрмитаж. С-Пб.: Изд-во Гос. Эрмитажа, 2011, s.12.

Medalyer sənətində istifadə edilən vasitələrin diapazonu digər sənət növlərindən daha məhduddur. Lakin ümumi halda götürüldükdə medalyer sənəti son dərəcə ifadəlidir. Medalyer sənəti tamaşaçı ilə xüsusi, əgər belə demək mümkünsə intim münasibətlərə girir. Medalyer sənətində uzaqdakı mənzərənin dəqiq və inandırıcı olması üçün rəngkarlığa xas olan perspektivdən də istifadə olunur.

Sikkələr siyasi həyat və ideologiya (məsələn, Roma imperiyası sikkələrində təsvirlər və yazılar) sahəsində, konkret tarixə aid qiymətli məlumatlardan xəbər verir, hətta naməlum çarların adlarını və hökmdarlıq tarixlərini müəyyənləşdirməyə imkan yaradır (Parfiya, Baktriya, Olviya).[1]

Sikkə və medalyonlardakı tarixi şəxsiyyətlərin təsvirləri bu mövzuda ən əhəmiyyətli qaynaqlardır. Elə sikkə və medalyonlar var ki, məhz onların üzərində olan portret təsvirlərinə əsasən biz bu və ya digər tarixi şəxsiyyətin mövcud olması haqqında məlumat alırıq. Sikkələrdə həkk olunmuş bəzi şəhər adları onların mövcud olmasını sübut edir (məsələn, Azərbaycan ərazisində Qarqar, Hunan və s. şəhərlər).

“Bizim eramızın əvvəlindən başlayaraq XIV əsr də daxil olmaqla zaman kəsiyini medalyer sənətinin tənəzzül dövrü kimi tanımaq olar”.[2] Orta əsrlərdə “istirahət edən” medal sənəti yeni vüsətlə İntibah dövründə dirçəlir. XIV-XV əsrlərdə İtaliyada alıcılıq qabiliyyəti olmayan, yəni utilitar mahiyyətini itirərək bədii xüsusiyyət daşıyan medallar yaranmağa başlayır. Orta əsrlərdə medalların simvolikası və atributikası bir ənənə şəklində formalaşır və “medal ” dili mədəni dünyada başa düşülürdü.

XVII əsrdən başlayaraq Avropanın qabaqcıl ölkələrində monarxiya quruluşlu hakimiyyətin güclənməsi ilə əlaqədar medalyer sənəti geniş vüsət alır. XIX əsr medalları mövzu müxtəlifliyi, həmçinin say baxımından artması ilə yadda qalır. XX əsrin gərgin və dinamik ritmi ayrı-ayrı janrların inkişafına yeni istiqamət və impuls vermişdir. İndi sənətkarlar medalyer sənətində təkcə tarixi hadisələri və müasir dövrün görkəmli şəxsiyyətlərinin obrazlarını deyil, həm də gündəlik hadisələri, o cümlədən, hər bir yaradıcını düşündürənbütün zamanlarda aktual olan həqiqətləri, əsrin elmi-texniki kəşflərini və s. tərənnüm edirdilər. XX əsrdə medalyer sənətinin ifadə vasitələri (dərinləşdirilmiş kontur, kontrrelyef, qarasavad, mina)

[1] Казаманова Л.Н. Введение в античную нумизматику. М.: Изд-во Московского университета. 1969, s.7

[2] Одноралов Н.В. Техника медальерного искусства: Учеб. пособие. М.: Изобразительное искусство. 1983, s. 14

əhəmiyyətli dərəcədə genişlənir, medal və plaketlərin kompozisiya, faktura və plastik dili mürəkkəbləşir.

Birinci fəslin **II yarımfəsli** "Azərbaycanda medalyer sənətinin təşəkkülü və inkişafı"adlanır. Bu hissədə medalyer sənətinin Azərbaycan ərazisində təşəkkül tapması və inkişafı haqqında müfəssəl məlumat verilir.Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar zamanı digər maddi-mədəniyyət nümunələri ilə yanaşı, müxtəlif çeşidli medalyon, diskşəkilli asma, sikkə və plaket nümunələrinin tapılması qədim dövr medalyer sənəti haqqında fikir yürütməyə əsas verir. Bununla yanaşı, bu nümunələr təsviri sənətimizin mənşəyinin öyrənilməsində də əvəzsiz materialdır. Azərbaycan medalyer sənətinin ilk nümunələri qədim insanların bədii təfəkkürünü, estetik baxışlarını və dini-ideoloji təsəvvürlərini əks etdirən qiymətli sənət əsərləridir. Medalyer sənəti də daxil maddi mədəniyyət nümunələrində müşahidə etdiyimiz simvollar müəyyən informasiya daşıyıcılarıdır. Onlar nəsildən-nəslə ötürülərək əsrlərlə demək olar ki, heç bir dəyişikliklərə uğramamışlar. Belə simvolların əksəriyyəti universial təbiətə malikdirlər. Onlara xaç, dairə, spirallar və s. aid edilir. Azərbaycan ərazisində üzərində astral rəsmlər arasında günəşi simvolizə edən təsvirlər,işarələr olan medalyer sənət nümunələri xüsusilə geniş yayılmışdı. Çoxsaylı sənət abidələrində günəş rəmzləri dairə, dairədən ayrılan şüa, içərisində nöqtə olan çevrə kimi təsvirlərlə verilir. Buna misal olaraq Xaçbulaqdan tapılmış gicgah medalyonunu göstərmək olar.

Azərbaycan ərazisindəki sənət abidələrində maral rəsmi çox qədim zamanlardan rast gəlinən təsvirdir. Maraqlı sənət nümunələrindən biri Mollaisaqlı təknə qəbir materialları içərisində tapılmış maral təsvirli tunc medalyondur.

Təbrizdə, Azərbaycan muzeyində saxlanılan iki eksponat qədim medalyer sənətimizin ən maraqlı nümunələrindəndir. B.e. əvvəl I minilliyə aid edilən Manna dövləti dövrünə aid Güney Azərbaycandan aşkarlanmış sikkə və Marağadan tapılmış Midiya dövlətinə aid gümüş pulun üstündəki təsvirlər eyni süjeti canlandırır. Hər ikisinin mərkəzi kompozisiyasında əllərində heyvanların arxa ayağından tutaraq saxlayan kişi təsvir olunub. Onların tipik hərəkəti hərbi qəhrəmanlıqlar deyil, yer üzünü "qorxulu məxluqlardan" təmizləmək, mədəni nemətləri onların ilkin qoruyucusundan əldə etməkdir".[1]

---

[1] Мелетинский Е.М. Первобытное наследие в архаических эпосах // Доклад для VII МКАЭН. М.: Наука, 1964, s.10

Azərbaycan maddi mədəniyyətinin ən maraqlı nümunələrinə Güney Azərbaycanın Urmiya gölü ətrafında Ziviyə (Zeyvə) yaşayış məntəqəsindən tapılan sənət nümunələrimizi aid etmək olar. Onlar qədim Azərbaycanın tarixi və incəsənətinin öyrənilməsində qiymətli material olmaqla yanaşı, Yaxın və Orta Şərq mədəniyyətinin inkişaf problemlərini işıqlandıran əvəzsiz sənəddir. Assuriya üslubunda yerinə yetirilən əsərlərə b.e.ə. VIII-VII əsrin əvvəlinə aid edilən qızıl plaketləri nümunə kimi göstərmək olar

Üslub xüsusiyyətlərinə görə, qədim dövrün medalyer sənəti nümunələrindəki rəsmləri 2 qrupa bölmək olar. I qrup həndəsi fiqur və heyvanların stilizə olunmuş təsvirləridir. Bunlar daha qədim dövrə aid olan sənət nümunələridir. Onlar primitiv konstruktiv-ornament motivləri əsasında inkişaf edərək, daha mürəkkəb bədii kompozisiyalar yaradır. Bunlara misal olaraq Mollaisaqlı medalyonunu, Xanlar rayonundan tapılmış tunc düyməni, Gədəbəydən tapılmış sürmədən hazırlanmış medalyon, disk və s. göstərmək olar.

Çəkilmə üslubuna və məzmununa görə II qrup məmulatlar üzərindəki təsvirlər fərqlidir. Mifoloji mövzulara müraciət, təsvirlərin daha realistik üslubda, yüksək sənətkarlıq səviyyəsində işlənilməsini müşahidə edirik. Bu rəsm qrupunda yeni meyllər aydın izlənilir. Hər iki qrupa aid bədii təsvirlər sonralar öz magik-dini funksiyasını tədricən itirərək dekorativ mahiyyət daşımışdır.

Dissertasiyanın **II fəsli “I minilliyin sonu – orta əsrlər dövrü Azərbaycan medalyer sənəti**” adlanır.Bu fəslin **I yarımfəsli** b.e.ə. III əsr – ilkin orta əsrlər dövrü medalyer sənətinə həsr olunub və Albaniya, Parfiya Sasani dövlətlərinin mövcudluğu zamanı Azərbaycanın sikkəxanalarında zərb olunan medalyer sənəti nümunələri təhlil edilmişdir.

Kənardan gətirilən pullar tələbatı ödəmədiyindən b.e.ə. III əsrin I yarısından başlayaraq Albaniyada yerli zərbxanalarda Makedoniyalı İsgəndərin sikkələrinə oxşar gümüş sikkələr kəsilirdi. Bu sikkələrin bədii tərtibatı təsviri sənət baxımından elə bir əhəmiyyət daşımasa da, görkəmli numizmat Əli Rəcəblinin qeyd etdiyi kimi, “Albaniyanın anonim də olsa, bənzətmə sikkə zərbi olduqca önəmli faktordur. Bu, təkcə həmin dövrdə antik Azərbaycanın artmaqda olan iqtisadi potensialının göstəricisi deyildi. Bu fakt, eyni zamanda, antik Azərbaycanda – Alban çarlığında öz sikkəsini buraxmaq üçün ən mühüm şərtlərdən olan möhkəm dövlətçilik institutunun mövcudluğunu sübut edirdi”.[1]

---

[1]Rəcəbli Ə. Azərbaycan sikkələri. Bakı, 2012. s. 46

Eramızdan əvvəl III əsrdə Azərbaycan və İran əraziləri əsası Arşakilər tərəfindən qoyulmuş Parfiya dövlətinin tərkibinə daxil olur. “Parfiya dövləti (e.ə. 248-ci il – b.e. 227-ci ili) Aşen (yaxud Ərsan – “qəhrəman ər, sak”) nəslindən olan sakların hökmdarı Ərsak (e.ə. 248-215) tərəfindən yaradılmışdı”.[1]Arxeoloji qazıntılar zamanı ölkəmiz ərazisində Parfiya sikkələrinə çox sayda rast gəlinmişdi. Onların bədii tərtibatı parfiyalıların türk mənşəli olduğuna dəlalət edir. Belə ki, skiflərə xas olan baş geyimi kiribasinin, skif yay tipinin bir qədər dəyişdirilmiş siqma formalı asimmetrik “çiyinli” yay təsvirini sikkələrdə görürük. Parfiya sikkələrində oxatanın olması və yay ötürülmə motivinin mövcudluğu bunun skif-sak tayfalarının mifoloji dünyagörüşündən qaynaqlanan investitura aktının olmasına sübutdur”.[2] Bu sikkələnin bədii nöqteyi-nəzərdən maraqlı cəhəti insan üzünün anfas təsviridir. Belə tip sikkələrə Atropatena dövlətçiliyinin rəmzi kimi önəm daşıyan Midiya Atropatenasının çarı Darinin gümüş draxmalarını göstərmək olar. Parfiya sikkələri özündə realizm və güclü şərtiliyi uyğunlaşdırırdı. Buna etnoqrafik realizm də demək olar. Belə ki, o dövrün geyim, bəzək, silah, sosial dərəcə, rütbə atributları dəqiqliklə verilir, amma kompozisiyanın bəzi xüsusiyyətləri ənənəvi-simvolik xarakter daşıyır.

224-cü ildə dünyanın tarix səhnəsində Parfiyanı Sasanilər əvəz edir.III əsrin ikinci yarısında Azərbaycan ərazisinin böyük hissəsi Sasani imperiyası tərəfindən işğal olundu. III-VII əsrlərdə Qafqaz Albaniyasının ərazisində əsasən Sasani gümüş sikkələri – draxmaların istifadə edildiyinə dair çoxsaylı sikkə tapıntıları şahidlik edir.Sasanilər sikkələrdə özünəməxsus üslublarını yaratdılar. Onların üz tərəfində sağa yönəlmiş və bununla da hökmdarın müstəqilliyini xarakterizə edən şahənşahın portreti təsvir edilirdi.Bu portret ikonoqrafik cəhətdən mükəmməl, realistik, tam dəqiqliklə, yüksək bədii zövqlə təsvir edilirdi. Sənətkarların dərin müşahidə qabiliyyəti, şahənşah obrazlarının konkret xüsusiyyətlərini çatdırmaq istəyi nəzərə çarpır. Haqlı olaraq erkən sasani sikkələri bu dövr medalyer sənətinin ən gözəl nümunələri hesab edilir.Sonrakı dövrlərdə “III əsrin sonunda medalyer sənətinin portret nümunələrindəki cizgilərin açıq-aydınindividuallaşdırılması tədricən

---

[1]Rəcəbli Ə. Azərbaycan sikkələri. Bakı, 2012. s.52

[2]Раевский Д.С. Мир скифской культуры. М.: Языки славянских культур, 2006. s. 158

standartlaşdırılmış obrazlarla – belə demək olarsa, “ideallaşdırılmış” portretlərlə əvəzlənir. Burada portretin özünə deyil, hökmdarlıq insiqniyalarının (müəyyən formalı külah, onun üzərindəki işarələr,geyim və bəzək) dəqiqliklə verilməsinə diqqət yetirilir”.[1]Sasani sikkələrində maraqlı simvollardan biri şahənşahların taclarında aypara nişanı və ulduzun birlikdə təsvir olunmasıdır.Bu simvolların qaynaqlarını araşdırarkən Midiyanın "Qızqapan" türbəsinin sütunları arasında Günəş Allahı Mitranın simvolik işarələrindən olan aypara nişanının dairəvi lövhə üzərindəki relyef təsvirini müşahidə edirik. Eyni zamanda, həmin türbədə xeyir və bərəkət ilahəsi Anahiti təmsil edən ulduz nişanı da vardır. Burda qeyd edilməlidir ki, Sasanilərdən də əvvəl Parfiya hökmdarı II Orodun sikkələrində də ay və ulduz təsviri mövcud olmuşdur. Qərbi-türk xaqanlığının sikkələrində qədim türklərin və Mərkəzi Asiyanın digər xalqlarının inanclarında əhəmiyyətli yeri tutan ulduzla ayparanın müşahidə edirik. Buna misal olaraq arxeoloji qazıntılar nəticəsində tapılmış göytürk sikkəsini göstərmək olar.Bu gün bayrağımızda yer alan aypara və ulduz nişanı uzaq sələflərimizdən bizə miras qalan günəş Allahı Mitra və bərəkət, artım, su ilahəsi Anahitin simvolik təsvirindən başqa bir şey deyildir. Maraqlı cəhətlərdən biri sasani şahlarının taclarının öz formalarına görə bir-birini təkrarlanmamasıdır.Amma çox halda taclarda kürə şəklində olan element görürük. Bəzi tədqiqatçılar onun saçdan[2], bəziləri parçadan[3] düzəldildiyini qeyd etsələr də, tacının ağır olduğundan hündür taxt-tacın üstündə qızıl zəncirlərdən asıldığı haqqındakı fərziyyələr[4] daha inandırıcıdır.

İkinci fəslin “İslam dövrü medalyer sənətinin inkişafı (VII-XVIII əsrlər)” adlı **II yarımfəslində** islam dini ilə əlaqədar yaranan yeni tip medalyer sənəti nümunələri, onların inkişaf mərhələləri, bədii tərtibatı haqqında müfəssəl məlumat verilir.İlk baxışdan islam dövrü sikkələri bəlkə də canlı təsvirlərsiz kimi görünə bilər.Lakin elə ən erkən nümunələrlə tanışlıqda görürük ki, sikkələrdə həm zərdüşt atəşdanının, həm İran və Bizans hökmdarlarının, həm müxtəlif heyvan və digər təsvirlərinə rast gəlirik. Sonrakı illərdə də bir çox müsəlman sikkələrində insan və müxtəlif canlıların təsvirlərinə təsadüf edirik. Bu sikkələrin təhlili maraqlı nəticələrə

---

[1] Борисов А.Я., Луконин В.Г.Сасанидские геммы. Л.: Изд. ГЭ, 1963. s.17

[2]Аллахи Х. История иранского искусства. СПб.: Петербургское востоковедение. 2007, s.165

[3]Вейс Г.В. История культуры народов мира. Расцвет Византии: арабские завоевания. М.: Эксмо, 2006. s.87

[4] http://www.almuslih.org/Library/Daryaee,%20T%20%20Sasanian%20Persia.pdf

gətirib çıxarır:“ Orta əsr müsəlman numizmatikasında son Abbasilər dövrü Yaxın və Orta Şərqin praktik olaraq bütün bədii tərtibatlı emissiyalarının arxasında türk mənşəli sülalələrin olduğunu görürük”.[1] Müsəlman dekoru və öncədən mövcud olmuş türk tanrıçılıq simvolikasının çarpazlaşması onların əsas fərqləndirici əlamətidir.

Bir çox tədqiqatçılar heyvan təsvirlərinin ən çox Azərbaycan şəhərlərinin anonim mis sikkələrində olduğunu qeyd edirlər. Yəqin ki, bu onunla bağlıdır ki, qızıl və gümüş sikkələrdən fərqli olaraq, mis sikkələr gündəlik həyatda daha çox işlənir və onların tanınması vacib amildir. Bu yerdə bir çox tədqiqatçıların sikkələr üzərindəki heyvan təsvirlərinin 12 illik Şərq zodiakal və ya türk-monqol təqvimi ilə bağlı olduğu fikirləri ilə razılaşmaq olmur. Çünki təsvir olunan bu heyvanların bəziləri (kərgədan, dəvə, suiti, fil, tısbağa və s.) zodiakal təqvimdə ümumiyyətlə iştirak etmir. Bəs onda sikkələrdə onların təsviri nə ilə əlaqədardır? Numizmat alim Q.Pirquliyeva da öz tədqiqatında qeyd edir: “Biz onunla razı deyilik ki, mis sikkələr yerli əhali üçün “təqvimi” funksiya daşıyırdı. Bundan başqa, ikonoqrafik aspektdə də bu sikkələr olduqca mükəmməldir. Hesab edirik ki, hər şəhər məxsusi zərbxanaya malik idi, hansının ki, öz növbəsində damğa tipli xüsusi "nişanı" var idi və bunun əsasında, yalnız yerli əhali deyil, həm də yaxınlıqda yaşayan əhali zərbxananın adını tanıya bilirdi”.[2]

Bu dövr Azərbaycan medalyer sənət nümunələrinin bədii tərtibat xüsusiyyətlərinə görə şərti olaraq bir neçə yerə bölmək olar: ancaq ərəb yazılarından ibarət, yəni kalliqrafik; həm yazılı, həm də ornamentli; heyvan və ya insan təsvirli; həm yazılı, həm də damğa tipli rəsmli, süjetli təsviri olan və s. Bu dövrdə sikkələrin bədii tərtibatında kalliqrafik ornament ənənəsi geniş yayılmağa başlayır. Sikkənin yerliyindəyazı, həm qrammatik qaydalarına uyğun olaraq, həm də bədii kompozisiyanın tələblərinə uyğun yerləşdirilirdi. Bu yazılar mahir sənətkar əli ilə naxış və rəsmlər arasında o qədər bacarıqla yerləşdirilirdi ki, o, özü gözəl bir bəzəyi andıraraq, ümumi kompozisiyanın ayrılmaz bir hissəsini təşkil edirdi.

Azərbaycan türklərinin dini görüşlər sistemində və mifik təfəkküründə hər bir heyvanın öz müəyyən mövqeyi və yeri var. Medalyer

---

[1]Настич В.Н. Художественное оформление мусульманских монет: нарушение запрета? //Городская художественная культура Востока. М.: Государственный музей искусства народов Востока. 1990, s.135

[2]Пиркулиева Г. Медные монеты Азербайджана. Баку: MBM, 2007, s.18-19

sənət nümunələrində təsvirləri daha çox işlənən heyvan və quşların bir neçəsinin üzərində dayanaq. Aslan təsviri zəngin etnomədəni irsimizdə, xüsusən də sənət abidələrimizdə, o cümlədən sikkələrimizdə tez-tez təsadüf edilir.Amma çox halda bu təsvir İran mədəniyyəti ilə assosiasiya olunur. Tədqiqatçı F. Əfəndinin "Этносознание турецких народов и их искусство"[1] əsərində haqlı olaraq göstərdiyi kimi, ari xalqlarının (hindiran) mədəniyyət və incəsənət abidələri qonşu türk xalqlarının abidələrindən fərqli olaraq daha dolğun və ətraflı öyrənilsə də, bəzi alimlər tərəfindən səhv olaraq türk xalqlarına məxsus mədəniyyət abidələrinin yaranması iran xalqlarına aid edilmişdir.Qədim eposumuz "Kitabi-Dədə Qorqud" boylarında aslan ulu söyköklərdən biri kimi təsvir olunur. "Oğuzların aslana qarşı totemçilik ehtiramı "rasional" deyil,dərin və sonsuzdur.Güc dünyasında birinci olan aslan əsatiri çağlardan Böri (Qurd) ilə yanaşı, qəbilə soykök totemi,dövləti cəmiyyət yarandıqdan sonra isə qağan rütbəli mifoloji əcdad kimi düşünülməkdə idi".[2] Azərbaycanda hətta hökmdarlar aslan adını daşımışlar (Qızıl Arslan, Körpə-Arslan və s.). Çox güman ki, totem olaraq: "Sikkələr və qablarda, qaldırılmış pəncə ilə təsvir olunan aslan, şübhəsiz,sahibinə xoşbəxtlik arzusu kimi məna yükü daşıyır".[3] Aslan təsviri olan medalyer sənəti nümunələrindən Pənahabad(Şuşa), İrəvan və Şamaxıda zərb olunan sikkələri göstərmək olar.

Orta əsr sikkələrimizdə müşahidə etdiyimiz digər heyvan təsviri canavardır. Canavar və ya qurdun əski türk düşüncə və inancında böyük rol daşıdığı bəllidir. Canavar ilk növbədə heyvanat dünyasında azadlıqsevərliyin, müstəqilliyin ən yüksək simvoludur. Həm də "Qədim türklərdə nəsillərinin canavar mənşəli olduğu haqqında əfsanə mövcuddur". [4]Köçəri xalqlarda erkən dövlət quruluşunun yaranması ilə bu simvol əvvəlcə hərbi ideologiyaya, daha sonra isə dövlət simvolikasına keçir. "Qədim türklərin bayrağında qızılı rəngli qurd başı təsvir edilmiş və rəqiblərində qorxuya, həyəcana səbəb olmuşdu".[5]Islamı dəyərlərin yayıldığı zaman qurd obrazının təsir dairəsi zəifləsə də, sənət nümunələrimizin, o cümlədən,

---

[1]Эфенди Ф. Этносознание турецких народов и их искусство. Баку: Нурлан, 2002, s.11

[2]Dədə Qorqud Kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər. 2004, s.339

[3]Мухамадиев А.Г. Булгаро-татарская монетная система XII-XV вв. М.: Наука, 1983, s.94

[4]Соколова З.П. Культ животных в религиях. М.: Наука, 1972, s.113.

[5]Гумилев Л. Н. Древние тюрки. М., 2002. СПб.: Кристалл. s.26

sikkə üzərindəki təsvirlərin olması qədim türklərin totemik simvolunun yaşamasının bariz sübutudur.

V.Bartold oğuzların qədim inamlarından bəhs edərkən onqonlara xüsusi əhəmiyyət vermişdir: "Hər bir Oğuz qəbiləsi müəyyən quşa sitayiş edirdi. Qəbilənin üzvləri həmin quşa toxunmaz və onun ətini yeməzdilər. Belə totemləri onqon və ya uyğun adlandırırdılar".[1] VII əsrdə bəzi qəbilələr öz damğalarında quş şəklini təsvir edirdilər. Sikkələrin səthində rast gəlinən ornitomorf təsvirlərdən türk mədəniyyəti ilə birbaşa əlaqəli olan qartal obrazı bizim üçün xüsusi əhəmiyyət kəsb edir.

Əgər heyvanat aləmində aslan şahdırsa, quşlar səltənətində isə bu, əlbəttə ki, ilahilik, cəsurluq, qələbə, əzəmət və hakimiyyət simvolu olan qartaldır. "Qartal türk tayfa və xalqlarının əsas totemlərindən biri olmuş, bu xalq və tayfaların ictimai şüurunda qartal "Günəş tanrısı" idi. "Oğuznamə"də həmçinin qeyd edilir ki, qartal türk tayfaları üçün totem idi".[2] Qartal təsviri çox qədim dövrlərdən mədəniyyətimiz ilə bağlıdır. "Arxeoloqların şahidliyinə əsasən, b.e.ə. VI əsrdə ikibaşlı qartal keçmiş Het çarlığından şərqdə yerləşən Midiyada izlənilir".[3] "E.ə. 612-ci ildə çar Kiaksarın vaxtında Maday dövləti skiflərin köməyi ilə təcavüzkar Asur dövlətinə son qoymuş, ərazisini özünə qatmış və bu münasibətlə tarixdə ilk dəfə ikibaşlı qara qartal emblemini öz ağ bayrağı üzərində həkk etmişdir".[4]Sikkələrdə tez-tez rast gəlinən digər quş təsvirlərindən biri də tovuz quşudur. Buna nümunə olaraq Təbriz, İrəvan və digər şəhərlərdə zərb edilən sikkələri göstərmək olar. Ağa Məhəmməd şah Qacarın taxta çıxması münasibətilə zərb edilən qızıl sikkələrdən biri zəngin bədii tərtibatı ilə diqqətəlayiqdir. Tovuz quşu təsviri Azərbaycanda ən geniş yayılmış rəsmlərdən olmuşdur. Əski türk inamında tovuz quşu günəşi təmsil edirdi. Maraqlıdır ki, onun adı həm yunan,həm də Azərbaycan dilində,demək olar ki,eyni cür səslənir.Görkəmli tədqiqatçı-alim Ə. Salamzadə"Священные птицы Евразии: символика и иконография" adlı məqaləsində bu

---

[1]Бартольд В.В. Очерк истории туркменского народа. Сб. «Туркмения», т.I, Л., 1929. s.28

[2]Эфенди Ф. 12 символов олицетворений. Баку: Гянджлик, 1998, s.65

[3]Барыбин А. Как появился двуглавый орёл в гербе России? // «Наука и жизнь» №3, 2001. s.35

[4]Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr. 1994. s.65

quşun Azərbaycanda digər unudulan adının Tulu və “Dədə Qorqud” eposunda Qazan xanın “Tulu quşunun yavrusu” olduğunu qeyd edir.[1]

Medalyer sənəti nümunələrində süjetli təsvirlər də təsadüf edilir. Belə təsvirlər mövzu genişliyi ilə fərqlənmir, əsasən ayini-ritual və ov səhnələrindən ibarətdir. Belə tipə çapan atlı təsvirləri, aslan və ya canavarın otyeyən heyvanları parçalaması səhnələrini nümunə kimi göstərmək olar.Süjetli təsvirlərlə yanaşı, sikkə tərtibatında damğa tipli nişanlar da çox təsadüf olunur.

Dissertasiyanın **III fəsli** “**XIX-XX əsrlər Azərbaycan medalyer sənəti”** adlanır və iki əsr ərzində kiçik plastikanın bu sahəsində gedən proseslər işıqlandırılır. Bu fəslin “XIX əsr Azərbaycan medalyer sənəti” adlanan **I yarımfəslində** qeyd olunur ki,XIX əsrdə Azərbaycan gərgin beynəlxalq siyasi şəraitlə əlaqədar iqtisadi və siyasi cəhətdən ziddiyyətli bir dövr yaşamışdır. Belə ki, Vətənimiz qüvvətli dövlətlərin maraqlarının toqquşduğu hərb məkanına çevrilmiş və onların mübarizəsi nəticəsində dünyada ikiyə bölünmüş azsaylı xalqlardan birinə çevrilmişdir. Bu dönəmdə yaradılmış medalyer sənəti nümunələrini şərti olaraq bir neçə yerə bölmək olar: artıq sırf medal xarakteri daşıyan nümunələr; Azərbaycan xalqının tarixi, ictimai-siyasi və iqtisadi həyatı ilə sıx bağlı olan, lakin xarici ölkələrdə zərb edilən medallar; əvvəlki dövrlərdə də işlənən, milli ənənə əsasında nəbati və kalliqrafik ornamentin sintezindən yaranmış sikkələr və s.

Rusiya dövlətinin xarici siyasətinin müvəffəqiyyətlərinin tanıdılması o dövr rus medalyer sənətinin mühüm funksiyalarından biri idi.Bununla əlaqədar Rus-İran müharibəsinə həsr olunan və xalqımızın həyatının ən faciəli tarixi ilə birbaşa bağlı olan yüksək sənətkarlıq nümunəsi olaraq bir neçə xatirə medalı zərb edilmişdir. F.P.Tolstoyun yaratdığı Rus-İran müharibəsinə həsr edilmiş medallar seriyası bədiiliyi, monumentallığı və təsvir sadəliyinin orqanik uyğunluğu ilə fərqlənir.

İran müharibəsini əks etdirən xatirə medallarının bütöv bir kolleksiyası,məsələn, 1826-cı ildə Gəncənin ikinci dəfə Uğurlu xandan alınması münasibəti ilə “Yelizavetpol uğrunda döyüş. 1826-cı il”, “Təbrizin alınması 1827-ci il”, 1828-ci ildə İranla sülhün bağlanması və digərləri tariximizin müqəddəs yadigarlarıdır. Zərif, plastik kütlənin paylanmasında

---

[1] Саламзаде Э.А. Священные птицы Евразии: символика и иконография // «Диалог цивилизаций в эпоху становления глобальной культуры». Сборник Государственного института искусствознания Министерства культуры РФ. М., 2012, s.555

ciddi arxitektonikaya malik olan bu medallar Azərbaycan tarixinin ən dramatik anlarını öz səthlərində əks etdirir.

"Təbrizin alınması" medalında döyüş səhnəsi və yaxud onun nəticəsini görmürük. Medalın süjeti real hadisələrə əsaslanır. Belə ki, Təbriz uğrunda döyüş olmamış, şəhər düşmənə təslim edilmişdi. Bu seriyadan olan digər medalyer nümunəsi "İrəvan qalasının alınması" münasibətilə zərb edilən medaldır. Bu medalda da klassisizmə xas olan məlum bir teatrallıq, pafos hiss olunur. Vətən uğrunda həlak olmuş əsgərin cansız bədəni medalın təsir gücünü daha da artırır. İrəvan qalasının alınmasına həsr olunmuş digər medal 6 dekabr 1827-ci ildə rus qoşunlarının hələ Təbrizdə olduğu zaman şəhərin zərbxanasında düzəldilmiş və kifayət qədər yüksək bədii səviyyədə icra olunmuşdur. Bu seriyanın medalları arasında diqqətimizi ən çox cəlb edən isə 1828-ci ildə İranla sülhün bağlanmasına həsr edilən və Sankt-Peterburq zərbxanasında hazırlanmış çar medalıdır. Xatirə medalının səthində Ağrı vadisinin şimal kənarında Zəngi çayının sahilində yerləşən məscid və minarəli, çoxlu sayda karvansaralı sırf müsəlman-türk memarlıq üslublu İrəvan şəhərinin təsvirini görürük. Medalın müəllifinə gəlincə isə onlar iki nəfərdir. Aversdə əsərin sağ qıraq tərəfində çətinliklə seçilən kiril əlifbası ilə "C" hərfi həkk olunub. Çox guman ki, medalın aversi həmin dövrdə yaşayıb-yaratmış rus medalyeri Qriqori İvanoviç Saburov tərəfindən yaradılmışdı. Digər tərəfdə isə yenə də sağ tərəfdə dalğanın üzərində "B.A." monoqramı həkk olunmuşdu. Bu monoqram XIX əsrin ilk onilliyinin ən istedadlı medalyerlərindən biri K.Leberextin tələbəsi olmuş Vladimir Efimoviç Alekseyevə aiddir.

Əfsuslar olsun ki, bu medalın adı bəzi tədqiqatlarda səhv olaraq "İrəvan qalasının alınması" adı ilə təqdim olunur. Məsələn, böyük müəllif kollektivinin ərsəyə gətirdiyi "Иреванское Ханство – Российское завоевание и переселение армян на земли Северного Азербайджана" (Bakı-2010) adlı kitabın 371-ci səhifəsində erməni müəllifi Arzumanyanın "Око Бюракана"(Ереван, 1976) kitabına istinadən verilən şəkildə bürünc xatirə medalının avers hissəsi 1828-ci ildə İranla sülhün bağlanmasına həsr edilən və Sankt-Peterburq zərbxanasında hazırlanmış çar medalının, revers hissəsində isə yenə də həmin zərbxanada medalyer Fyodor Tostoyun eskizi əsasında Lyalin və Klepikov tərəfindən ərsəyə gətirilmiş "İrəvan qalasının alınması" (1839-cu il) adlı bürünc xatirə medalının üz hissəsi təsvir olunub. Yəni iki ayrı-ayrı medalın avers təsvirləri bir medalda birləşdirilib. Rusiyada zərb edilən bu medallarla yanaşı, Azərbaycanın XIX əsr sikkələrində də antropomorf süjetli təsvirlər arasında hökmdarların (portret,

ayaq üstə və ya taxtda), onların at belində fiqurları, alleqorik obrazlar, çox fiqurlu kompozisiyalar da məlumdur. Qeyd edilməlidir ki,hökmdarların təsviri olan sikkələr Novruz bayramı və ya şahlarla əlaqəli xüsusi, məsələn, şahın taxta çıxması, onun ad günü və səfərləri kimi əlamətdar hadisələr münasibəti ilə zərb olunurdu.XIX əsrin əvvəllərindən, yəni Fətəli şah Qacardan (1797–1834) başlayaraq bütün sonrakı hökmdarların təsviri olan həm qızıl,həm də gümüş sikkələr zərb olunmağa başlayır.

Üçüncü fəslin **II yarımfəsli** "XX əsr Azərbaycan medalyer sənəti" adlanır və əsrin əvvəlindən başlayaraq müasir dövrümüzə qədər Azərbaycan medalyer sənətində müşahidə olunan prosseslər, yaradılan əhəmiyyətli nümunələr haqqında təfsilatlı məlumatlar verir.

Şimali Azərbaycanda isə XIX əsrin sonu – XX əsrin əvvəli Bakı şəhəri öz tarixinin zəngin, qaynar, "neft bumu" ilə yadda qalan cəzbedici mərhələsini yaşamışdır. Bu dövrdə yaradılan çox maraqlı və medalyer sənətinin unikal sənət abidələrindən biri "Nobel qardaşlarının neft istehsalı ortaqlığı" firması tərəfindən bir milyard pud neft hasilatı şərəfinə buraxılan iki xatirə plaketasıdır. 1907-ci ildə onlardan biri Paris, digəri isə Sankt-Peterburq zərbxanasında hazırlanıbdır.

XX əsrin əvvəllərində yaradılan medalyer sənəti nümunələrdən diqqətimizi ən çox cəlb edən Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinin açılışına həsr edilən medaldır.Bu önəmli hadisə münasibəti ilə zərb olunan və tuncdan hazırlanmış döş və xatirə nişanını bəzi tədqiqatçılar medal (M.Əliyev[1], V.Bağırov[2],) bəziləri (S.Qasımova[3]) isə jeton adlandırır. Fikrimizcə, bu medaldır,çünki jeton ödəniş vasitəsi ola bilər, medal isə yox.

Məlumdur ki, XX əsrin 20-ci illərindən sonra Azərbaycan təsviri sənətinin bir çox növləri bədii irsin zəngin ənənələrini davam etdirməklə yanaşı, Avropa və Rus incəsənətinin mütərəqqi və yenilikçi nailiyyətlərindən bəhrələnərək yenidən dirçəlməyə başladı.Sovet dövrü Azərbaycan medalyer sənəti təhlil edildikdə ilk növbədə ölkəmizdə yaşayıb-yaratmış heykəltəraş P.A.Xryunovun yaradıcılığı haqqında söz açmaq lazımdır. Heykəltəraşlığın bu sahəsində uzun illər ardıcıl və səmərəli fəaliyyət göstərən P.A.Xryunov özünü püxtələşmiş medalyer kimi tanıtmışdır.Medalyer sənətinin təşviqat xarakterini, kütlələrə təsir imkanlarını yaxşı anlayaraq sovet hakimiyyəti onu

---

[1]Əliyev M. Azərbaycanda medal sənəti // "Qobustan" incəsənət toplusu,1986, №1 (81), s. 80-86.

[2]Bağırov V. Azərbaycanda kiçik formalı heykəltəraşlığın inkişafı: XX əsr. Bakı: Nurlan, 2004,164 s.

[3]Касимова С. Фалеристика Азербайджана первой половины XX века / С. Касимова // İRS - Nasledie. 2009. N 3, с. 24-28.

sosialist təbliğat sisteminə daxil etməyə çalışırdı. P.Xryunovun dövlət sifarişlərindən əlavə, yaradıcı medalları da mövcuddur. Medal sənətində az təsadüf edilən "Avtoportret" (1965), xüsusi lirizimlə fərqlənən "Oğlan" (1962), "Hökumət evi", "Qız qalası" (1970) və "Sabir" (1972) plaketası onun maraqlı işlərindəndir.

1956-cı ildə məşhur rus medalyeri V.Akimuşkina Şərqin böyük şairiMəhəmməd Füzulinin xatirə medalını,1958-ci ildə bir çox medal sənəti müsabiqələrinin laureatı sovet medalyeri M.Eşba "26 Bakı komissarlarının ölümünün 40 illiyinə" həsr olunmuş xatirə medalını işləyir.

1960-1980-cı illərdə Azərbaycanda medalyer sənəti fəal inkişaf edərək, öz funksiyalarını və obrazlı-ifadə vasitələrini xeyli zənginləşdirib, digər növ heykəllər arasında özünəməxsus yer tutmuşdur.

Sənətkarların əksəriyyəti medalyer sənətinə fasilələrlə müraciət etsələr də, bu sənətlə illər boyunca mütəmadi olaraq məşğul olan ancaq heykəltəraş A.Rüstəmov olmuşdur.Heykəltəraşın bu günə qədər Moskva və Leninqrad Zərbxanalarında hazırlanmış 24 ədəd xatirəmedalı mövcuddur və onların hamısı SSRI Mədəniyyət Nazirliyinin Medalyer komissiyasından keçmişdir. Bununla yanaşı, o, 35-ə yaxın sərgi medalları da yaratmışdır. Nizami, Ə.Naxçıvani, Nəsimi, M.P.Vaqif, C.Cabbarlı, H.Cavid, N.Nərimanov, M.F.Axundov, A.M.Qorki, M.Müşfiq və onlarla başqalarına həsr edilən xatirə medalları milli koloritdə, böyük məharətlə həkk olunub.Aslan Rüstəmov həm sovetlər birliyində, həm də xarici ölkələrdə keçirilən medalyer sənətinə aid sərgilərin, simpoziumların fəal iştirakçısı olmuşdur. Telman və Eldar Zeynalov qardaşları da medalyer sənəti sahəsində bir-birindən maraqlı əsərlər yaratmışlar. 1975-ci ildə Moskvada keçirilən II Ümumittifaq medal sərgisində Aslan Rüstəmovla yanaşı, Telman və Eldar Zeynalov qardaşları da iştirak etmişlər. Telman və Eldar Zeynalov qardaşlarının "Xəzər dənizində qayıqlar" (1973), Telman Zeynalovun "V.İ.Leninin müstəqil Azərbaycan Respublikasına teleqrammı" (1971), "Bakı qalası" (1973), Eldar Zeynalovun "Tahir Salahov"(1974) medalları sərgidə Azərbaycanı layiqincə təmsil etmişdir .

Son illərdə T.Rüstəmov və M.Rüstəmov qardaşları da medalyer sənəti sahəsində maraqlı əsərlər yaratmışlar. Müasir medal sənətində "intellektual" istiqamətin nümayəndəsi sayıla bilən medalyer T.Rüstəmov öz əsərini assosiativ-simvolik yönümdə həll edir. Emosional yaşantıların inikasını bu sənətin unikal dili ilə təqdim edən Mahmud Rüstəmov ümummilli lider Heydər Əliyevin portretində müdrik, dünya şöhrətli siyasətçinin parlaq obrazını yaratmışdır.

1970-1990-cı illərdə bədii medallar ənənəvi üslubda olsa da, bu əsərlərdə fərdi-üslubi yenilik meylləri güclüdür.Əfsus ki, son illərdə dövlət sifarişi demək olar ki, olmadığı üçün müasir Azərbaycan medalyer sənəti tənəzzülə yaxın bir dövrünü yaşayır. Fikrimizcə, problem bu gün yalnız dövlət səviyyəsində çözülə bilər və heykəltəraşlıq sənətinin bu növünə diqqət, dövlət sifarişlərinin verilməsi bu sahənin nüfuzunu qaldırardı.

**Nəticədə** dissertasiyanın əsas müddəaları müxtəsər elmi-nəzəri yekunlar şəklində ümumiləşdirilmişdir:

– Azərbaycan medalyer sənəti böyük bir tarixi dövr çərçivəsində – qədim dövrdən başlayaraq XXI əsrin ilk illərinə kimi dinamik, ənənəyə sadiq qalaraq inkişaf etmişdir;

– qədim dövr medalyer sənəti nümunələri Azərbaycan xalqı üçün xarakterik olan mədəni-etnik xüsusiyyətləri qoruyub saxlamaqla ənənələrin ötürücüsü kimi çıxış edir;

– Azərbaycan medalyer sənəti nümunələrdəki bədii təsvirlərdə ümumtürk təfəkkür tərzinin əks olunması bu ərazilərin əski türklərin ulu yurdu və inancları ilə bağlı olduğunu, türk tayfalarının Azərbaycanda qədim dövrdən yaşadığını deməyə əsas verir;

- sikkə və xatirə medalları sözün əsl mənasında ölkənin ictimai-siyasi tarixini illüstrasiya edir, dövrün xarakterini çatdırır, öz epoxasını, insanların taleyini və dövlətin ideoloji prinsiplərini əyani əks etdirərək, onların bədii-obrazlı şəkildə xarakteristikasını öz səthində daşıyır;

- sikkələrin yalnız mübadilə vasitəsi, təkcə iqtisadi həyatı xarakterizə edən mənbə kimi deyil, xalqın inanclarını, hökmdarların səltənət müddətlərini, yerləşdikləri məkanı, bədii zənginlikləri, yer üzündən itmiş bir şəhəri, günümüzə çata bilməmiş bir bitkini, tarixi hadisələri və o mədəniyyətin bədii xüsusiyyətlərini göstərən, sənət tarixi baxımından çox zəngin metal üzərində həkk olunan bir sənəd və informasiya mənbəyidir;

- müasirləri tərəfindən miniatür monumentlər kimi qəbul edilən medallar bədii mətləbin, emosional ovqatın kiçik bir sahədə əks etdirən böyük sənət əsəridir;

- Azərbaycan medalyer nümunələrin səthində olan simvol qrupların, təsvirlərin xüsusi kateqoriyaların (ornament motivləri və kompozisiyalar) bir çoxu rəmzi mahiyyətə malikdir, dünya quruluşu haqqında əski türkdilli xalqların mifoloji-dini, kosmoqonik təsəvvürlərini əks etdirməsi və qədim inanc və etiqadları ilə sıx əlaqədədir;

– Azərbaycan orta əsr medalyer sənətində qədim islama qədərki motiv və obrazlar islamda yenidən mənalandırılaraq və ya öz köhnə mənasını (bəzən qismən) saxlayaraq yaşamaqda davam etmişdir, müsəlman dekorunun və

öncədən mövcud olmuş türk tanrıçılıq simvolikasının çarpazlaşması onların əsas fərqləndirici əlamətidir;

– sikkələrdəki damğalar soy-kök idensifikasiyası üçün qiymətsiz mənbədir;

– sikkə və medallar dövrün əsl obyektiv sənədidir, özündə çox spesifik informasiya daşıyıcısı kimi ölkənin siyasi tarixi, ideologiyası və iqtisadiyyatının işıqlandırılması zamanı yazılı mənbələrdəki məlumatları dəqiqləşdirmə işində əvəzsiz əhəmiyyətə malikdir;

– çağdaş Azərbaycan medalı keçmişin bədii irsi ilə əlaqədardır, ənənə və novatorluğun qarşılıqlı təsirinin fasiləsiz məntiqi zəncirini təşkil edir;

– XX əsrdə bu sənətin yeniləşməsinə tərəf ilk addımlar atılmış, şəxsi koloritdən məhrum, stereotip, stilizə edilmiş təsvirlərdən insanın fərdi mahiyyətini, onun iç dünyasını ifadə edən iti psixoloji portretlərə qədər əhəmiyyətli təkamül yolu keçmiş portret janrında olmuşdur;

– XX əsrdə memorativ predmetdən ekspozisiya nümunəsinə çevrilən medal yalnız xatirə hadisələrini, görkəmli şəxsiyyətləri deyil, həm də bütün dünyanı əks etdirmək qabiliyyətinə malikdir;

– Azərbaycan medalyer sənətinin müasir vəziyyətinin xarakteristikası, onun sonrakı inkişafının perspektivləri ilk dəfə olaraq müəyyən olunmuşdur.

**Mövzu ilə bağlı müəllif tərəfindən aşağıdakı məqalələr dərc edilib:**


1. 1950-1970-ci illərdə Azərbaycan memorial medalları // "İncəsənət və mədəniyyət problemləri", № 2(24), 2008, s. 194-197.
2. Medalyer sənəti və onun Azərbaycanda təşəkkülü // "Mədəniyyət dünyası",XVII buraxılışı, Bakı, 2009, s. 229-232.
3. Медальерное искусство Азербайджана //"Национальные образы мира в художественной культуре". Материалы Международной конференции (Нальчик 8-9 ноября 2010), с. 389-392.
4. Azərbaycan medalyer sənəti xarici ədəbiyyatda //"Mədəni maarif", №3, 2011 s. 25-27.
5. К истории создания памятных медалей в честь Русско-персидской войны» // "Культура народов Причерноморья". № 243, 2012, с. 130-132.
6. Parfiya sikkələrinin bədii tərtibatı //"Təsviri və dekorativ-tətbiqi sənət məsələləri", №1-2 (16), 2015, s. 53-58.
7. Ziviyədən tapılan qızıl plaketaların bədii xüsusiyyətləri // "Sivilizasiya", № 4, 2015, s. 195-198.

*Ayten Ali gizi Ahmadova*

# AZERBAIJAN MEDAL ART

## SUMMARY

Dissertation is devoted to the study of the artistic features of the medal art of Azerbaijan, which is reflected in the discovered during archaeological excavations samples, as well as the author's copies.

The thesis consists of an introduction, three chapters, six subchapters, conclusion and bibliographic apparatus. **In the introduction** the actuality of the theme is determined by the degree of the research problem, the goal and objectives set out scientific innovation, characterized by the major sources, the chronological framework and the practical significance of the work.

**In Chapter I - "General information about the medal case"** traced the direction of historical development and the main artistic features of medal art of Azerbaijan. We study the basic stages of formation and development of art medals of Azerbaijan.

**Chapter II - "Medal art of Azerbaijan end of the millennium - the Middle Ages"**, devoted to the art of the medal in the period III. BC. - the early middle Ages, where the samples are analyzed medal art of Azerbaijan in the period from uschestvovaniya Albania, Parthian and Sassanid state. Also, it traces the development of art Islamic medal period (VII-XVIII centuries.), which provides information about new types of samples medal art created in this period, stages of development and decoration.

**In Chapter III - "Medal art of Azerbaijan in XIX-XX centuries"** a classification of medals created in the XIX century, and examines processes observed in Azerbaijan medal art of the modern period, provides a detailed analysis of the most important works.

**The Conclusion** summarizes the main findings of the study.

*Айтен Али гызы Ахмедова*

# АЗЕРБАЙДЖАНСКОЕ МЕДАЛЬЕРНОЕ ИСКУССТВО

## Р Е З Ю М Е

Диссертация посвящена исследованию художественных особенностей медальерного искусства Азербайджана, нашедших отражение в обнаруженных во время археологических раскопок образцах, а также авторских экземплярах.

Диссертация состоит их введения, трех глав, шести подглав, заключения и библиографического аппарата.

**Во введении** обосновывается актуальность темы, определяется степень исследованности проблемы, цель и задачи, излагается научная новизна, характеризуются основные источники, хронологические рамки и практическая значимость работы.

**В I главе – «Общие сведения о медальерном деле»** прослеживаются направления исторического развития и основные художественные особенности медальерного искусства Азербайджана. Исследуются основные этапы становления и развития искусства медали Азербайджана.

**II глава – «Медальерное искусство Азербайджана I конца тысячелетия – периода средневековья»**, посвящена медальерному искусству периода III в. до н.э.– раннего средневековья, где анализу подвергаются образцы медальерного искусства Азербайджана в период существования Албании, Парфии и государства Сасанидов. Также прослеживается развитие медальерного искусства исламского периода (VII-XVIII вв.), где дается информация о новых типах образцов медальерного искусства, созданных в этот период, этапах их развития и художественном оформлении.

**В III главе– «Медальерное искусство Азербайджана XIX-XX веков»** проводится классификация медалей, созданных в XIX веке, а также рассматриваются процессы, наблюдаемые в медальерном искусстве Азербайджана современного периода, дается подробный анализ наиболее значимых произведений.

В **Заключении** обобщаются основные выводы исследования.

Tiraj 100. Format 60x84 $^{1}/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХИТЕКТУРЫ И ИСКУССТВА**

*На правах рукописи*

**АЙТЕН АЛИ гызы АХМЕДОВА**

# АЗЕРБАЙДЖАНСКОЕ МЕДАЛЬЕРНОЕ ИСКУССТВО

Специальность: 6215.01 – Изобразительное искусство

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени доктора
философии по искусствоведению

**БАКУ – 2018**